# BİR POVESTİN KİNO HƏQİQƏTİ

***Keçən əsrin 40-cı illərində kinodramaturgiya sahəsində ilk qələm təcrübələrin- dən sonra İlyas Əfəndiyev daha çox teatra bağlanır. Hekayə və povestlər yazmaq həvəsi də bu cavan nasiri bir an rahat buraxmır. 1952-ci ildə "Torpağın sahibi" adlı, bir kitab şəklində dərc edilmiş bir kinopovest yazır.***

Sonrakı nəşrlərdə isə "Torpağın sahibi" əsəri povest kimi qələmə verilmişdir. Bənzər hadisəni biz müəllifin "Körpüsalanlar" adlandırdığı əsərinin taleyində də izləyirik. Nəşrlərin əksəriyyətində bu, roman , bəzilərində isə povest kimi təqdim olunur.

Bizim üçün bir məqam önəmlidir ki, İlyas Əfəndiyev "Torpağın sahibi" əsərini kinopovest kimi düşünüb, kinopovest kimi də çap elətdirib. Bu əsər öz quruluşu, xarakteri etibarı ilə də xalis kinopovestdir. Həqiqətən, "Torpağın sahibi" adicə povest deyil, özündə kino eydetikliyini daşıyan dinamik təhkiyədir. Əsəri oxuduqca həməncə aydınlaşır ki, İ. Əfəndiyev bu nəsr nümunəsini kadrı kadrın arxasına calaşdırırmış kimi yazıb. Bu kinopovestin, əgər belə demək mümkünsə, "vizual cərgə"si çox cəlbedici və effektlidir. Ümumiyyətlə, yazıçı janrını kinopovest, kinonovella kimi müəyyənləşdirdiyi əsərlərdə dinamikaya və vizuallığa xüsusi diqqət verir və heç bir detalı nəzərdən qaçırmır. Elə "Torpağın sahibi" kinopovestinə başladığı anda, yəni yazının ilk cümləsində müəllif personajları hərəkət burulğanına atır: "Göz işlədikcə uzanıb gedən geniş asfalt yolla mavi rəngli bir "Pobeda" gəlirdi". İ. Əfəndiyevin "Seçilmiş əsərləri"nin iki cildliyində bu cümlə bir qədər başqadır və bizim fikrimizcə, yazıçının üslubuna daha yaxındır: "Çölləri qılınc kimi kəsərək, axşam günəşinin son işıqlarını əks etdirən asfalt yolla mavi rəngli bir "Pobeda" gəlirdi". Fərqi duymaq bir o qədər də çətin deyil. Lakin bu fərqləri aşkarlayıb təhlilə çəkmək bizim dissertasiyanın predmetindən kənardadır. Biz buna, sadəcə, ədəbiyyatşünasların diqqətini cəlb etmək istəmişik. Hərçənd belə cüzi fərqlər bizim düşüncələrin istiqamətinə heç bir vəchlə təsir edə bilməz. Hər bir halda İ. Əfəndiyev "Torpağın sahibi"nin ilk cümləsini sanki "yazmayıb", onu öz qələmilə ekrana proyeksiya eləyib. Odur ki, bu cümlə oxunmaqdan daha öncə "görükür". Doğrudan da, İlyas Əfəndiyevin "Torpağın sahibi" əsərini oxuduqca hər sətri diskret bir kadr qismində qavrayırsan. Sanki yazıçı bu kinopovesti kadr-kadr gözü qarşısında görüb və yalnız sonradan vərəqə köçürdüb. Təhkiyənin xarakteri də fikrimizi təsdiqləyir və hətta kinopovestin ilk cümləsindən sonra gələn abzaslar da bunu sübut edir:

"... Şoferin yanında oturmuş gənc və yaraşıqlı oğlan maşının radioqəbuledicisindəki melodiyanı dinləyə-dinləyə qarşısından gəlib-keçən çöllərə baxırdı.

Axşam günəşinin son şüaları altında parlayan ucsuz-bucaqsız tarlalar, biçənəklər, yaşıl yoncalıqlar tez-tez bir-birini əvəz edirdi.

Nəhayət, qərbdəki əlvan buludlar solub, bənövşəyi bir rəng aldığı zaman, oğlan gözünü çöllərdən çəkib qabağa baxdı.

Axşamın alator qaranlığı içində seçilən uzaq üfüqdə bir-birinin ardınca işıqlar alışıb-yandı... "

Kinopovestdə bu təsvirdən, daha doğrusu, yazıçı təhkiyəsilə ötüşən "kadr"lardan sonra oğlanla şoferin qısa mükaliməsi özünə yer tapır.

Əgər əsərdəki bu kiçik parçanı kinoestetika meyarları ilə təhlilə çəksək, görəcəyik ki, yazıçı balaca bir epizodda rakursları neçə dəfə dəyişir. Onun "kamera"sı "Pobeda" maşını ilə bağlı ilk epizodda kənar, uzaq müşahidəçidir: hansısa bir uca nöqtədə dayanıb yola baxır.

İkinci cümlədə yazıçının "kamera"sı artıq maşının içinə boylanır. Üçüncü cümlədə isə biz "kamera"nın da maşında əyləşib qürub çağı kənd mənzərəsinin seyrçisinə çevrildiyini görürük. Kinopovestin bu ilk cümlə-"görüntüləri" bir anın içində büsat səhnələrilə əvəzlənir:

"... Elektrik lampaları ilə işıqlanmış zal adamla dolu idi.

... Hamı təzə paltar geyinmişdi.

... Hamının görünüşündə bir bayram təntənəsi duyulurdu" .

Kinopovestdə yazıçı "kamera"sı hələ də obyektiv seyrçidir, kənar müşahidəçidir. Lakin bu vəziyyət uzun sürmür. İ. Əfəndiyev portretlərə keçir və "kadr"da Nəriman kişinin portretini verir:

"... Ucaboylu, enlikürək bir adam olan Nəriman kişi, yan qapıdan daxil olaraq, ağır addımlarla irəliləyib, zalın ortasında dayanmış bir dəstə adamın yanına gəldi. Onun təzə tikilmiş sürməyi frençinin döşün-

də orden və medallar görünürdü. Çal bığları elektrik işığında gümüş kimi parıldayırdı". İ. Əfəndiyevin əsərindəki hər bir parça olduqca dinamik və kinematoqrafikdir. Kinopovestdən kiçicik bir epizodu da nəzərinizə çatdıraq:

" - Təbrik edirəm, dost!

Sonra çalğıçılara tərəf dönərək:

- Tərəkəmə! - deyə qışqırdı.

Sel kimi iti və coşqun bir musiqi sanki otağı titrətdi.

- Əl vurun! - deyə Saday dostunu çəkib özü ilə birlikdə oyuna saldı.

... Dostlar rəqs edirdi.

... Qızlar bir-birilərinin çiyni üstündən boylanaraq, baxıb gülümsəyirdilər.

... Oynayanların ayaqlarını görmək olmurdu.

... Nəriman kişinin qartal baxışlarında nəşə və sevinc duyulurdu".

İlyas Əfəndiyevin "Torpağın sahibi" kinopovestindən gətirdiyimiz qısa parçalardan aydın olur ki, bu nəsr nümunələrində təsvir azdır. Əvəzində isə burada bolluca dinamika, hərəkət var. Sonuncu nümunədə hər bir cümlə müəyyən bir kadrdır. Özü də bu "kadr"ları yazıçı kino işini bilərəkdən, peşəkarcasına düzüb-qoşub. Yazıçının kinematoqrafik duyumu, kino mədəniyyətinə yaxınlığı burada özünü çox qabarıq şəkildə büruzə verir. Əslində, İ. Əfəndiyev "Torpağın sahibi" kinopovesti içrə diskret və sürətli montaj aparır. Montaj o qədər dinamikdir ki, oxucu hər şeyi, - rəqs edənləri də, gülümsəyən qızları da, Nəriman kişinin nəşə dolu baxışlarını da apaydın "görür". Musiqi, rəqs, becid ayaq hərəkətləri, təbəssümlü çöhrələr nəsrin daxili strukturunun "kadr"larıdır. Bu parçalar bir daha təsdiqləyir ki, İ.Əfəndiyev öz dövrünün kinomədəniyyətini, xüsusilə səssiz kinonu gözəl bilib, onun şedevrlərinə yaxşı bələd olub. Olsun ki, biz yanılırıq. Ancaq "Torpağın sahibi" kinopovestinin bəzi səhnələrində S.Eyzenşteynin, A.Dovjenkonun filmlərilə paralellər aşkardır. Bəlkə də mümkün ki, bu, eyni bir dövrün törətdiyi oxşar hadisələrdir.

"Torpağın sahibi" kinopovesti bir kolxoz hüdudlarında baş vermiş yerli əhəmiyyətə malik olayları güzgüləyir. Bu olaylar kolxozun təsərrüfat işləri kontekstində gerçəkləşir. Yəni böyük miqyasda bu kinopovest də dövrün təbliğat siyasətinin bir hissəsidir. Amma İlyas Əfəndiyev ustacasına sovet ideologiyasının tələblərini təmin edərək qəhrəmanlarına bir sevgi tarixçəsi yaşatmışdı. Bu tarixçə-kinopovest boyunca istehsalat-təsərrüfat mövzusunu üstələyirdi, əsəri ideoloji klişelərdən qurtarırdı. Deməli, İlyas Əfəndiyev bir yazıçı kimi öz bədii dünyasına xəyanət eləmirdi. Əksinə, o hər an ədəbiyyatda ideolojo klişelər fövqündə dayanırdı. Odur ki, "Torpağın sahibi " kinopovesti, janrın Azərbaycan ədəbiyyatı üçün yeni olmasına baxmayaraq, tam və mükəmməl, bədii cəhətdən bitkin, dolğun bir əsər idi. Kinematoqrafik baxımdan da İlyas Əfəndiyev onu məharətlə bitirmişdi, kinopovesti başladığı ritmdə də sona yetirmişdi:

"Elektrik lampaları ilə işıqlanmış böyük zalda halay vurub oturan gənclər, ortada rəqs edərək, bir-birlərini yormağa çalışan Gülöyşə ilə poçtalyon Sultana əl vururdular. Nəriman kişi qızlarla əhatə olunmuş Sonaya yaxınlaşaraq, cibindən bir üzük çıxarıb ona verdi:

- Ay qızım, bu, bibin Mehricanın yadigarıdır... Yaxçı saxla, itirmə!"

Diqqət edin, burada İlyas Əfəndiyev mümkün olacaq dialoqu birdən-birə kəsir, mətləbi uzatmır, təşəkkür üçün belə Sonaya söz vermir. O, sanki bir kinorejissor kimi rakursu əlüstü dəyişir, Nəriman kişiylə Sonanın mükalimənisini guya ki, yarımçıq buraxıb rəqs edənləri "kadr"a gətirir:

"... Gülöyşə ilə Sultan hələ də rəqs etməkdəydilər.

- Sultan, bərk dayan, qızı yorma! - deyə Rəşid qışqırdı.

Gənclər sevinc və həyəcan içində əl vururdular.

... Bu coşğun səslər yavaş-yavaş uzaqlaşdıqca dan yeri qızarırdı.

... Sərdar, Sona, Saday, Aras, Etibar, Rəşid, Güleyşə və poçtalyon Sultan al səfəqə boyanmış nəhayətsiz çöllərlə irəliləyirlər...

Söyüd ağacları arasından axaraq, mavi səmanı əks edən ana arxın yanında dayanmış Novruzalı baba gəncləri fərəhli nəzərlərlə süzərək:

- Uşaqlar bu gün payız əkininə başlayırlar, - deyə yanındakı yaşlı kişiyə müraciət etdi.

- Bəli, - deyə kişi başını tərpətdi.

- Vaxt nə tez gəlib keçir, - deyə qoca təəssüflə başını tərpətdi.

... Gənclər isə irəliləyir, irəliləyirdilər... ".

İlyas Əfəndiyev dövrün qələbə eyforiyasına, parad estetikasına "sadiqliyini" eyhamlarla vurğulasa da, bundan kinopovestin vizual imkanlarına kiçicik xətər belə dəymirdi. Çünki bu yazıçının nəsrinə həmişə daxili bir dinamika, daxili bir ritm xas olub. Fikir verirsinizmi, kinopovestin final səhnəsində də yazıçı "kamerası" necə sürətlə rakursları dəyişir və bir anlığa da olsa, passiv seyrçiyə çevrilmir. Bir sözlə, kinopovest qəbul edilib istehsalata buraxılmaqdan ötrü tam hazır bir material idi. Əlbəttə, bu xüsusda nəzərə alınmalıdır ki, "Torpağın sahibi" kinopovesti 1952-ci ildə sovet ideologiyasının danılmaz bir həqiqət sayıldığı zamanda yazılmışdı.

***Yeri gəlmişkən, qeyd edilməlidir ki, İ. Əfəndiyev özünün "Balıqçılar" kinonovellası, "Torpağın sahibi" kinopovestilə Azərbaycan ədəbiyyatında yeni janrları, bu janrların milli ədəbiyyatda var olmaq hüquqlarını təsdiqləyirdi, onların imkanlarını gəlişdirirdi, mövcud potensialını aşkarlayırdı.***

***Kifayət Bunyatova***